STP

STP ŞİRKƏTLƏR QRUPU



DƏQİQ MEXANİKİ

# EMAL

www.stp.az


STP
ŞİRKƏTLƏR
QRUPU
SƏNAYE ÜÇÜN
KOMPLEKS
HƏLLƏR

# MÜNDƏRİCƏT


02 ÜMUMİ MƏLUMAT

04 GÜCLÜ TƏRƏFLƏRİMİZ VƏ ÜSTÜNLÜKLƏRİMİZ

05 MƏHSUL VƏ XİDMƏTLƏR

06 AVADANLIQLAR

08 KEYFİYYƏTƏ NƏZARƏT

10 ƏLAQƏ

# DƏQİQ MEXANİKİ EMAL

## ÜMUMİ MƏLUMATLAR

STP Şirkətlər Qrupunun **dəqiq mexaniki emal** zavodu 2012-ci ildən fəaliyyət göstərən, tamamilə CNC texnologiyaları əsasında mürəkkəb konstruksiyalı maşın və mexanizm hissələrinin yüksək dəqiqliklə hazırlanmasını həyata keçirən müasir istehsalat sahəsidir.

### Emal xidmətləri

- Frez / Torna 3-5 Ox
- Şaquli və üfüqi dönmə
- Ötürücü maşınlar
- Eroziya maşınları
- 120 mm-ə qədər əyilmə



## İSTEHSAL GÜCÜ

BÜTÜN SAHƏLƏR ÜZRƏ

**10 000** ton/il



## SAHƏLƏR

Layihə-konstruktor və texnoloji bölmə

Alət və tərtibat təminatı xidməti

Mexaniki emal

Xüsusi təyinatlı dişli çarxların emalı

Elektro-erozion emal sahəsi

Yığım sahəsi

## SEKTORLAR

Neft və qaz

Kənd təsərrüfatı

İnşaat

Sənaye

## İXRAC

- RUSİYA
- TÜRKİYƏ
- MACARISTAN
- ABŞ
- FRANSA

## AVADANLIQLAR

**“MAZAK”**

41 ədəd

YAPONİYA

**“GLEASON”**

18 ədəd

FRANSA

# GÜCLÜ TƏRƏFLƏRİMİZ VƏ ÜSTÜNLÜKLƏRİMİZ



## Zavodda istismar olunan avadanlıqlar aşağıdakılardan ibarətdir:

- 3÷5 oxlu CNC torna və frez dəzgahları, horizontal və vertikal emal mərkəzləri, CNC elektro-erroziya dəzgahları, pardaqlama dəzgahları, dişli frez dəzgahları, mişar dəzgahları, dərin deşik açma dəzgahı
- Koordinat ölçü dəzgahları (CMM)
- Kəsici alətlər

Zavodun əsas məhsulları geniş çeşiddə texnoloji ləvazimat və tərtibat, dişli ötürmələrin bütün mövcud növlərinə aid detal və yığımlar, böyük ölçülü val tipli və prizmatik detallardır.



### Bunların sırasına daxildir:

- Plastik kütlə, rezin, şüşə və müxtəlif əlvan metallardan məmulatlar üçün tökmə qəliblər, press qəliblər
- Ştamplar (kəsmə, əymə, formavermə)
- Gövdə detalları (müxtəlif qabarit ölçülərdə)
- Pilləli, dişli vallar (müxtəlif qabarit ölçülərdə)
- Slindrik, konik, sonsuz vint, Novikov tipli, hipoid və s. dişli çarxlar
- İnstrumental məmulatlar










DƏQİQ EMAL AVADANLIQLARI

# TEXNİKİ İMKANLARI

Qəliblərin, presformaların və ştampların yığılması bölməsi müxtəlif növ qəliblər, pressformalar və ştampların yığılması üçün nəzərdə tutulmuşdur. Sahədə yerləşən dərin deşik açan dəzgahı qəliblərin, presformaların su kanallarını **Ø 10-15 L=750 mm-ə** qədər ölçülərdə açmaq imkanına malikdir.

## Zavodun bölmələri və sahələri

- Layihə-konstruktor və texnoloji bölmə
- Alət və tərtibat təminatı xidməti
- Mexaniki emal sahələri: *frezləmə, tornalama*
- Xüsusi təyinatlı dişli çarxların emalı
- Elektro-erozion emal sahəsi
- Yığım sahəsi

## Məhsul və xidmət



Flyanslar



Dişli çarx



Mexaniki emal

# AVADANLIQLAR

## MAZAK

Avadanlıqların və detalların dəqiq emalı üzrə torna sahəsində Yaponiyanın MAZAK şirkətinin torna dəzgahları quraşdırılıb. Bu avadanlıqlarda *diametri 3500 mm, uzunluğu 6000 mm*-ə qədər olan məmulatlar üzərində torna əməliyyatlarını aparmaq imkanları var.

Hər **«MAZAK»** torna dəzgahlarının növünə görə torna əməliyyatı aparmaq mümkün olan xammalların ölçüləri aşağıdakı kimidir:

- Ø51mm, L=130mm
- Ø280mm, L=309mm
- Ø420mm, L=1538mm
- Ø580mm, L=1000mm
- Ø920mm, L=6064mm
- Ø340mm, L=385mm
- Ø3500mm, L=1800mm
- Ø320mm, L=530mm
- Ø380mm, L=550mm
- Ø580mm, L=3000mm
- Ø670mm, L=1354mm
- Ø920mm, L=4069mm
- Ø658mm, L=995mm

Avadanlıqların və detalların emalı üzrə frez sahəsində əsasən Yaponiyanın MAZAK şirkətinin frez dəzgahları quraşdırılıb. Bu avadanlıqlarda həndəsi *ölçüləri 3750x10000 mm, H=1750 mm, çəkisi 43 ton* olan məmulatlar üzərində frez əməliyyatları aparmaq mümkündür.

Hər **«MAZAK»** frez dəzgahların növünə görə frez əməliyyatı aparmağa mümkün olan xammalların ölçüləri aşağıdakı kimidir:

- 3750x10000mm, H=1750mm, 43000kq
- 1740x700mm, H=770mm, 2000kq
- 1300x510mm, H=570mm, 1200kq
- 1380x750mm, H=600mm, 1200kq
- Ø730, H=500mm, 500kq
- Ø3500mm, H=1800, 9500kq(10050kq)
- Ø1450mm, H=1450mm, 2200kq
- Ø1050mm, H=1300mm, 1500kq
- Ø630mm, H=900mm, 400kq










# AVADANLIQLAR

## GLEASON

Xüsusi təyinatlı dişli çarxların emalı bölməsində Amerikanın **GLEASON** şirkətinin dişli frez və diş itiliyəci dəzgahları quraşdırılıb. Avadanlığın növünə görə **Ø1200 mm**-ə qədər ölçülərdə olan xammallarda dişli çarxların emalı və itilənməsi kimi əməliyyatlarını aparmaq mümkündür.

## MITSUBISHI

Pardaqlama və eroziyon bölmədə Yaponiyanın **MITSUBISHI** şirkətinin **Tel eroziyon dəzgahı** (məmulatın maksimal ölçüsü 300x300x250mm), **Deşmə eroziyon** (məmulatın ölçüsü ən çoxu 400x250x240mm) və **Dalma eroziyon** (məmulatın maksimal ölçüsü 400x300x300mm) kimi elektroeroziyon dəzgahları quraşdırılmışdır.

# KEYFİYYƏTƏ NƏZARƏT

**Şirkətimizin istehsal və xidmət sahələrində aşağıdakı yoxlama və sınaqlar aparılır:**

- Qaynaq tikişlərinin vizual yoxlanması
- Qaynaqçıların sertifikasiya testləri
- Boya və örtük sahəsində müxtəlif növ sınaqlar (Boya tətbiqinin yoxlaması – Paint Application test, Adgeziya testi – Adhesion test, Duz testi – Soluble test, Çarpaz kəsim testi- Cross cut test , Dust Assessment – Tozun dəyərləndirmə testi
- Mexaniki emal olunmuş detalların və metal konstruksiyaların həndəsi ölçü yoxlamaları (mikron - 0.001mm dəqiqlik ilə)
- Qeyri -dağıdıcı sınaqlar (MT,PT,UT)
- Sərtlik testi – hardness test
- Səthin kələ-kötürlülük testi  - Roughness test

Eyni zamanda, məhsullarımız müvafiq standartlara cavab verən sertifikatlarla təmin olunub.






# SERTİFİKATLAR








# ƏLAQƏ

H.Z. Tağıyev qəsəbəsi,
Sumqayıt, Azərbaycan AZ5022

***0990**

info@stp.az / info@stp.az




STP sənaye tələblərinə cavab verən istehsal imkanları və keyfiyyətə əsaslanan yanaşması ilə müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlərlə əməkdaşlıq edir.

Müasir texnologiyalarla təchiz olunmuş avadanlıqlarımız və çevik istehsal infrastrukturumuz, tərəfdaşlarımıza yüksək keyfiyyətli və funksional həllər təqdim etməyə imkan verir.

Sınaqlardan keçirilmiş sistemlərimiz və peşəkar komandamız əməkdaşlığın etibarlı əsaslar üzərində qurulmasına şərait yaradır.

Əgər Siz də istehsalda sabitlik və funksionallıq axtarırsınızsa, STP ilə əməkdaşlıq imkanlarını dəyərləndirə bilərsiniz.

## Avadanlıqlar

74 ədəd frez və torna dəzgahı

18 ədəd Gleason (Fransa)

50-3200 tonluq hidravlik pres dəzgahı








STP